# AZƏRBAYCAN VƏ QIRĞIZ ƏDƏBİYYATINDA MÜHARİBƏ VƏ QADIN

***(İsa Hüseynovun "Tütək səsi" və Çingiz Aytmatovun "Cəmilə" povestləri əsasında)***

**İlahə Səfərzadə**
Doktorant
Bakı Dövlət Universiteti, Azərbaycan
E-mail: ilahe.safarzadeh@gmail.com

*https://doi.org/10.59849/iscapltmt.2024.109*

**Xülasə.** Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İsa Hüseynovun "Tütək səsi" və məşhur qırğız yazıçısı Çingiz Aytmatovun "Cəmilə" povesti müharibə şəraitində qadınların qarşılaşdıqları çətinliklərin, onların yaşantılarının ədəbiyyata necə yansıdığını göstərən əsərlərdir.
Ümumiyyətlə, qadın, onun cəmiyyətdə yeri və rolu, qadına münasibət ədəbiyyatın əzəli mövzularındandır.
Tədqiqata cəlb etdiyimiz povestlər müharibə mövzusunda yazılan əsərlərdən bir çox cəhətlərinə görə seçilir. Hər iki əsərdə müəllifin qadının taleyindən narahatlığı duyulur, xüsusilə müharibə dönəmində qadınların ictimai rolunun və vəzifəsinin heç də ön cəbhədə düşmənlə üz-üzə vuruşan kişilərdən az olmadığına diqqət çəkilir.
Ümumiyyətlə, nəsrdə, xüsusən də Orta Asiya və Qafqaz xalqlarının ədəbiyyatında hüquqsuz, ya da hüquqlarını bərpa etməyə çalışan qadın obrazları gender normalarını, qadınların sosial statuslarını əks etdirməklə yanaşı, cəmiyyətin daha əhatəli məsələlərini də ədəbiyyata gətirirlər.
"Cəmilə" və "Tütək səsi" əsərlərinin müqayisəsi göstərir ki, hər iki əsər müharibə dövründə qadınların yaşadığı çətinlikləri və sosial dəyişiklikləri anlamağa kömək etməklə bərabər, qadınla bağlı mövcud sosial və əxlaq normalarını da müzakirə obyektinə çevirir.
Fikrimizcə, hər iki müəllif müharibənin mənfi təsirlərini və doğurduğu faciələri oxucuların diqqətinə çatdırmaq, qadına yeni münasibət formalaşdırmaq, ailədə və cəmiyyətdə qadının roluna diqqət çəkmək, qadın azadlığı probleminin bədii həllinə nail olmaq məqsədini izləmişdir.
Hər iki əsərin qadın qəhrəmanlarına oxucuların və tənqidçilərin münasibəti birmənalı deyil. İ.Hüseynovun və Ç.Aytmatovun təhlilə cəlb olunan əsərlərində yer alan qadın obrazları haqqında müxtəlif fikir və mülahizələr var ki, onlardan bəzilərinə nəzər salınacaqdır.
**Açar sözlər:** qadın, xarakter, müqayisəli təhlil, müharibə, İsa Hüseynov, Çingiz Aytmatov

## War and woman in Azerbaijan and Kyrgyz literature

***(Based on the novels "The Pipe Sound" by Isa Huseynov and "Jamila" by Chingiz Aitmatov)***

**Ilaha Safarzada**
PhD candidate
Baku State University, Azerbaijan
E-mail: ilahe.safarzadeh@gmail.com

**Abstract.** The outstanding representative of Azerbaijani literature, Isa Huseynov's "The Pipe Sound" and the famous Kyrgyz writer Chingiz Aytmatov's short story "Jamila" are the most relevant works that show how the difficulties faced by women in wartime and how their lives are reflected in literature.
In general, the female factor, its place and role in society, and the attitude towards women are among the ancient topics of literature. From this point of view, the analysis of female characters in the studied works is of interest.

The narratives involved in the research are distinguished from the works written on the subject of war in many respects. In both works, the author's concern about the fate of women in war is felt, especially in the period of war, it is pointed out that the social role and duty of women is no less than that of men who are fighting the enemy on the front line.
In general, in prose, especially in the literature of the peoples of Central Asia and the Caucasus, images of women who are disenfranchised or trying to regain their rights reflect gender norms and the social status of women, but also bring broader societal issues into literature.
Discussions in this direction in prose aim to change society's attitudes towards women and create a more just world. Also, a comparison of the works "Jamila" and "The Pipe Sound" shows that both works help to understand the difficulties and social changes that women experience under the influence of war, but also suppress women's lives and make existing social norms a subject of discussion.
In our opinion, both authors pursued the goal of bringing the negative effects of the war and the tragedies caused by the war to the attention of the readers, forming a new attitude towards women, drawing attention to the role of women in the family and society, and achieving an artistic solution to the problem of women's freedom.
The attitude of readers and critics to the female protagonists of both works is ambiguous. There are various opinions about the female characters in the analyzed works of I. Huseynov and Ch. Aitmatov, some of which will be considered.
**Keywords:** woman, character, comparative analysis, war, Isa Huseynov, Chingiz Aitmatov

XX əsrdə dünyada gedən proseslər, xüsusən əsrin ortalarında başlayan İkinci Dünya müharibəsi ilə əlaqədar cəmiyyətin həyatında baş verən ictimai-siyasi dəyişikliklər ədəbiyyatdan da yan keçmədi. Bəllidir ki, xalqların tarixi, adət-ənənəsi, məişəti, əxlaq qanunları, başqa toplumlarla münasibətləri, müharibə və dostluq əlaqələri və s. bədii əsərlərdə öz əksini tapır. Bu baxımdan, müharibə dövründə ön cəbhədə vuruşan oğulların, həyat yoldaşlarının yolunu gözləyən qadınların taleyinin ədəbiyyatın başlıca mövzusuna çevrilməsi təsadüfi deyildi. Həmin dönəmdə müxtəlif xalqların ədəbiyyatında, demək olar ki, eyni problemlər əksini tapırdı.

Müharibə dövrünün diqqətçəkən əsərləri sırasında məşhur qırğız yazıçısı Çingiz Aytmatovun "Cəmilə" və Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İsa Hüseynovun "Tütək səsi" povestlərinin adı xüsusi qeyd olunmalıdır. Hər iki əsərdə müharibənin qadınların həyatına, tarixi roluna təsiri öz əksini tapır. Qanlı döyüşlər ön cəbhədə vuruşan kişiləri daha çox diqqət mərkəzinə gətirsə də, müharibənin qadınların həyatına, taleyinə vurduğu ağır mənəvi zərbələr, zərif çiyinlərinə qoyduğu yük onların tarixi rolunun heç də kişilərdən az olmadığını göstərir. Eyni zamanda bu proseslər xalqın psixologiyasına, qadına yanaşma tərzinə, daşlaşmış əxlaq qanunlarına da öz təsirini göstərir, yeni normalar formalaşdırır.

Qadınlar müharibəyə yollanan ərlərinin yolunu gözləyir, bəzən illərlə ondan xəbər ala bilmirdilər. Bu məsələ bir sıra xalqların ədəbiyyatında əksini tapmışdı. Yazıçılar qadının cəmiyyətdə və ailədə roluna, hüquqlarına, müharibə dövründə evli qadınların yaşadıqları çətinliklərə diqqət çəkməyə çalışırdılar. Araşdırmaya cəlb etdiyimiz hər iki əsərdə İkinci Dünya müharibəsi illərində kənd mühitində gərgin zəhmət, mürəkkəb insan münasibətləri fonunda cərəyan edən hadisələrə diqqət çəkilir. Qadınlar və uşaqlar cəbhəyə getmiş kişilərin yerinə çöl işlərini görür, bir sözlə, ailədə və cəmiyyətdə həm kişi, həm də qadın vəzifəsini yerinə yetirirdilər. Müharibə dövrünün qadınları bütün çətinliklərə rəğmən, ümidlərini itirmir, hətta cəbhədən "qara kağız" almış olsalar belə, müharibəyə gedənlərin bir gün geri dönəcəyinə inanırdılar.

Bəhs olunan əsərlərdə insanların ümumi kədər hissi, ümid və gözləntilərini simvolik olaraq özündə birləşdirən müharibə obrazı da diqqət çəkir.

Çingiz Aytmatovun "Cəmilə" povestində hadisələr yeniyetmə oğlan Seyidin dilindən nağıl edilir. Hətta bəzi tədqiqatçılar yazıçını "keçinə bala" – "kiçik oğlan" adlandırdığı Seyid obrazının prototipi hesab edirlər.

Əsərdəki hadisələr İkinci Dünya müharibəsinin başlanmasından üç il sonra baş verir. Məlum olur ki, müharibədən əvvəl Seyidin qardaşı Sadıq Cəmiləni qaçırıb özünə həyat yoldaşı etmişdir. Elə həmin il müharibə başlamış və kəndin bütün kişiləri kimi Cəmilənin həyat yoldaşı da cəbhəyə yollanmışdır. Kişilərin görməli olduğu işlər hələ on beş yaşı tamam olmamış uşaqlar və qadınların öhdəsinə qalmışdı. Kəndə yeni göndərilən məmurlar qadınlara təzyiq edir, onları ən ağır işlərdə çalışdırır, yeri gələrsə, ərlərinin əvəzinə ön cəbhədə vuruşmalı olduqlarını deyirdilər. Kişi işinə cəlb olunan qadınlardan biri də Cəmilə idi. Yenicə əsgərlikdən qayıtmış Danyar adlı gənc Cəmiləyə əlindən gələn köməyi etməyə çalışırdı. Zaman keçdikcə Danyar və Cəmilə bir-birinə yaxınlaşır, onların arasında özlərinə də aydın olmayan hisslər yaranır, könül bağı möhkəmlənir. Onlar bir-birinin sevincinə sevinir, kədərinə ortaq olurlar. Nəhayət, bütün buxovlardan azad xoşbəxt həyat naminə bir-birinə qoşulub kənddən qaçırlar.

Romanın epiloqunda Seyidin monoloqu diqqət çəkir: "Ağlımı itirmişdim sanki. Dərəyə enərək, suların içində arxalarından qaçmağa başladım. Sürətlə qaçarkən birdən yıxılıb yuvarlandım. Gözlərimdən çeşmə kimi yaş axırdı. Bax, həmin zaman yerdə uzanıb yatdığım anlarda birdən başa düşdüm Cəmiləni sevdiyimi. Bəli, sevmişdim. O mənim ilk sevgim, uşaqlıq sevgim idi. O an mən təkcə Cəmilədən deyil, uşaqlığımdan da ayrılmışdım" [1, s. 90].

İsa Hüseynovun "Tütək səsi" povestində isə fərqli iki qadın obrazı diqqət çəkir: Əsmət və Sürməli Söylü. Bu qadınları ortaq tale birləşdirir. Hər ikisi müharibəyə könüllü yollanan həyat yoldaşlarının qara xəbərindən sarsılırlar. Onların xarakter cizgiləri faciəyə yanaşma tərzlərində də ortaya çıxır. Tahir müəllimin həyat yoldaşı Əsmər ərinin ölümünə inanmaq istəmir və onun nə zamansa geri qayıdacağı düşüncəsi ilə yaşayır. Qara bağlayıb, yas qurmur, balalarına yetimlik duyğusunu hiss etdirməmək üçün əlindən gələni edir. Muxtarın arvadı Söylü isə ərinin qara kağızı gələndən sonra həyatına davam edir və yeni kolxoz sədri Cəbrayılla evlənir. Qadının bu addımı böyük oğlunun ağlını itirməsinə, kiçik oğlu Tapdığın isə evdən didərgin düşərək dərin mənəvi sarsıntılar içərisində xəstəlik tapmasına gətirib çıxarır. Söylü Cəbrayılın yaxşı insan olduğuna ürəkdən inanır və uşaqlarının onunla xoş münasibətdə olmaları üçün əlindən gələni əsirgəmir. Kənd camaatı məsələdən agah olanda bir tərəfdən Cəbrayılı qınayırsa, digər tərəfdən qadını günahkar hesab edir.

Povestdə müharibənin də obrazı var. Bu obraz insanları birləşdirən ümumi kədər və qorxu hissi ilə çulğalaşır. Əsərdə vətəndaşlıq borcu və şəxsi istəklər qarşı-qarşıya durur. Bir tərəfdən Vətən qarşısında müqəddəs borcunu yerinə yetirmək kimi şərəfli vəzifə, digər tərəfdən həyata keçməyəcəyini bildikləri arzularla, gələcəyə kor ümidlə yaşamaq müharibə dövrünün qadınlarının ən böyük ağrısı kimi mənalanır.

Hər iki əsərdə müharibə və onun gətirdiyi fəlakətlərin şüurda yaratdığı dəyişikliklər, qadına yanaşma tərzi də əks olunmuşdur. Həm "Tütək səsi", həm də "Cəmilə" əsərində qadın xarakterlərinin məruz qaldıqları durumla cəmiyyətin əxlaq qanunları arasında dərin uçurum vardır. Bu səbəbdən, hətta tədqiqatçılar arasında da bu surətləri xarakter və əxlaqca naqis hesab edənlər var.

Bu əsərlərin tarixi əhəmiyyətini həm də onda görmək olar ki, ictimai münasibətlərin aktuallaşdırdığı mənəvi problemlərin doğurduğu sualları ictimai fikrin gündəliyinə gətirdi, cəmiyyətin müzakirəsinə verdi. Həmin suallardan biri də bu idi ki, haqqında danışdığımız əsərlərin qəhrəmanları öz şəxsi səadətlərini mövcud normalardan üstün tutduqları üçün mühakimə olunmalıdırlarmı?

Ədəbiyyat təkcə zövq oxşamağa xidmət etmir, həm də insanı tərbiyə edir, müsbət keyfiyyətlər aşılayır. Problemə bu yöndən yanaşanda ədəbiyyatda insanın şəxsi xoşbəxtliyi ilə ümumun maraqları arasında ziddiyyət olduğunu görürük. Xoşbəxt olmayan qadın xoşbəxt cəmiyyətin qurulmasına

xidmət edə bilərmi? Təhlilə cəlb etdiyimiz əsərlər bu suala cavab tapmaq üçün ən gözəl örnəklərdəndir.

Araşdırmalarda Ç.Aytmatovun bəhs edilən povestinin qəhrəmanları haqqında fərqli yanaşmalara rast gəlmək mümkündür. Ədəbiyyatşünas Elmir Həsən Cəmilə surətindən bəhs edərkən yazır: "Cəmilə əsərdə məşum qadındır, çünki o ilk sevgisini qayğısızlıq, diqqətsizlik ucbatından küləyə tolazladı... Bu, onun mənəvi uçurumudur, sonda isə ikinci dəfə başqa bir şəxslə qaçır. Demək ki, Daniyardan da özünün verə bilmədiyi, bacarmadığı diqqəti görməsə, digər biri ilə "qaçmaq"lara davam edəcək. Çingiz Aytmatov Sovet dövründə müstəqil düşüncə sahibi kimi qadın azadlığını ön mövqeyə çəkməyə çalışsa da, ancaq bir o qədər də mono ifrata varmışdır. Bərabərlik, qarşılıqlı etibarlılıq gözlənilməmişdir nədənsə" [4].

Elmir Həsənin fikirləri məntiq baxmından düşündürücü görünsədə də, bizcə, belə yanaşma birtərəfli mahiyyət daşıyır. Çünki əsərdə Cəmilə və Sadıq arasında etibarlı sayıla bilən hər hansı sevgi münasibətindən söz açılmır. Sadıq Cəmiləni qaçırmışdı. Burada çılğın, öz arzu və istəkləri ilə yaşayan, cəmiyyətin, ətrafın gözləntilərindən çox öz arzularını düşünən qadının etibarlı olması gərəkən bir münasibətdən söhbət açılmamasına baxmayaraq, bir səhnədə qanuni evliliyinin fərqində olduğu üçün onun qeyri-iradi olaraq yaşadığı hisslərdən əzab çəkdiyi Seyidin dilindən oxuculara çatdırılır: "Mən həmişə gözləyirdim ki, o mənə nə isə mühüm bir şey deyəcək, nə üçün narahat olduğunu izah edəcəkdir. O isə heç bir şey demirdi. Başımı dinməz-söyləməz dizinin üstünə qoyur, gözlərini uzaqlara dikərək cod saçlarımı qarışdırır, titrək, hərarətli barmaqları ilə üzümü mehribanlıqla oxşayırdı. Mən aşağıdan yuxarı ona baxırdım, onun həyəcan və kədərlə dolu sifətində elə bil özümü görürdüm. Onu da nə isə üzürdü. İçərisində nə isə toplanır, yetişir, çıxış yolu axtarırdı. O da bundan qorxurdu. O vurulduğunu həm deməyə, həm də deməməyə əzab çəkirdi..." [1, s.81].

Təbii ki, yazıçı yaratdığı obrazın birmənalı qarşılanmayacağını bilirdi. Elə bu səbəbdən də əsərdə Cəmilənin hissləri xüsusi həssaslıqla təqdim olunur, sevgisinin məsum olduğuna diqqət yönəldilir. Müəllif özünün düşüncələrini Seyidin dili ilə belə ifadə edir: "Mən də elə idim: onun həm Daniyarı sevməsini istəyir, həm də istəmirdim…" [1, s.82].

Cəmilə obrazını təhlil edən E.Həsən onun doğma yurdunu tərk etməsinin səbəbini belə izah edir: "Cəmiləni bu cür addıma nə məcbur edirdi? Axı onun sevdiyi, yaxud sevmədiyi insan cəbhədə idi, düşmənlə üzbəüz. Bu şəraitdə ona yazılan məktubda qayğısızlıq duyan, ən həssas məqamda başqa bir insana qarşı məhəbbəti yaranan qadının eşq, sədaqət dürüstlüyü hansı ölçünün nəticəsini təşkil edə bilər? ... Bu zamanda bizim təsəvvürümüzdəki vəfalı qadın öz məhəbbətini qarşı tərəfə göstərə bilər, ən azından bu zaman şəraitində buna cəhd etmək mümkündür. Bundan əlavə Cəmilə vəfadarlığın rəmzi kimi qadın pilləsinin ucalığı kimi də oxucuya təqdim oluna bilərdi" [4].

Düşünürük ki, yazıçının məqsədi Cəmiləni xəyanətkar obraz kimi təqdim etmək deyil. İki yol arasında qalan gənc qadın həyatını yalan üzərində davam etdirməyi deyil, özünü azad və xoşbəxt hiss edə biləcəyi yerə üz tutmağı seçir. Əksinə, əgər o, qəlbində baş qaldıran duyğuları basdırıb, Sadığın həyat yoldaşı olmağa davam etsə idi, təkcə Sadığa deyil, özünə də xəyanət edər və insanların azad düşüncə və hisslərinə qarşı yönələn daşlaşmış əxlaq qanunlarına boyun əymiş olardı.

Tədqiqatçı Sərvanə Dağtumasın da əsər haqqında fikirləri maraqlıdır. O, Cəmilə obrazını mühakimə etmədən onun davranışına daha obyektiv qiymət verməyə çalışır. Ancaq bəzi məqamlarda Cəmilənin qaçışını "romantik xəyanət", yaxud "Sadıqdan qisas almaq üçün etdiyi hərəkət" kimi dəyərləndirməsi fikirlərinə dolaşıqlıq gətirir. Düşünürük ki, Cəmilənin bu addımında nə xəyanət, nə də qisas faktoru var. Cəmilə sadəcə xoşbəxt olmaq istəyir. Mütilik, cəmiyyətə ayaq uydurmaq kimi keyfiyyətlər onun xarakterinə xas deyil. Sərvanə Dağtumas onu da qeyd edir ki, "Sevginin təməlini "Cəmilə" ilə qoyan məhz Aytmatov oldu. Əsərin eşq qəhrəmanlarının sonrakı taleyi oxuculara məlum olmasa da, Aytmatov qeyd edir ki, onlar artıq çox xoşbəxtdirlər və layiq olduqları məhəbbətlə yaşayırlar. Əlbəttə, güman olunur ki, Cəmilə həyatın anlamını dərk etmiş və arzularına çatmışdır, geri dönüşün olması mümkün deyildi..." [3]

Yazıçının məqsədi heç də milli dəyərləri kölgə altına almaq deyil, əksinə, qadınların azadlığını əlindən alan cəmiyyət qanunlarının heçliyini nəzərə çatdırmaqdır. "Cəmiləni əksər kənd adamlarının nəzərində "bir şineli, bir də yırtıq çəkmələri olan", "əsli-nəcabəti olmayan", "avara Daniyara" bağlayan hisslər isə əsl insani və saf duyğularıdır. Yazıçı bu düşüncə və yanaşma fərqi ilə Cəmiləni yaşadığı mühitin, arasında olduğu insanların fövqündə saxlayır. Sonda adət-ənənəyə qarşı çıxıb Daniyarla getsə də, yazıçı Cəmilənin Daniyara qoşulub getməsi ilə məhəbbətin müqəddəs gücünü ilahiləşdirir və bu qərarında ona haqq qazandırır" [8].

Əsər Avropa müəllifləri tərəfindən də yüksək dəyərləndirilmiş, fransız yazıçısı Lui Araqon povesti "məhəbbət haqqında yazılmış ən gözəl əsər" kimi qiymətləndirmişdir.

Müharibənin ağırlığını yaşayan mürəkkəb taleli qadınlardan biri də "Tütək səsi" əsərinin qəhrəmanıdır. Söylünün düşdüyü durum Cəmiləninkindən fərqlidir. Onun övladları var və baş verən proseslər uşaqların mənəvi zədə almasına səbəb olur. Ona görə qadın tək özünü deyil, övladlarını da düşünmək məcburiyyətində qalır, sevgisini analığına qurban verməli olur. Gizlincə ailə qurmalarına baxmayaraq, qarşılarında el qınağı kimi böyük bir sədd çəkilir. Üstəlik, Cəbrayılı hər an ölüm təhlükəsi gözləyirdi. Kəndlilər Cəbrayılın addımını ərsiz qalmış qadının namusuna göz dikmək kimi qiymətləndirir və ondan kəndi tərk etməsini tələb edirdilər. Bəzi araşdırıcılar həm Söylü, həm də Cəbrayıl obrazına tənqidi yanaşırlar: "İki böyük oğlu olan Söylü nə üçün Cəbrayıla ərə gedir? Bütün bu faciənin səbəbi müharibədir, Cəbrayıl kimilərin arxa cəbhədə azğınlaşmasıdır" [2, s.134].

Fikrimizcə, yazıçının məramı yaratdığı obrazları cəmiyyətin mühakiməsinə vermək deyil, müharibənin mənfi təsirlərini və doğurduğu faciələri oxucuların diqqətinə çatdırmaq, qadına yeni münasibət formalaşdırmaq, ailədə və cəmiyyətdə qadının roluna diqqət çəkmək, qadın azadlığı probleminin bədii həllinə nail olmaqdır.

Ədəbiyyatda cəsarətli qadın obrazlarının yaradılması müsbət haldır. "Azərbaycan sovet nəsrində cəsarətli və fədakar qadın obrazlarının yaradılması T.Şahbazinin adı ilə bağlı olsa da, sonralar bu tendensiya bir sıra yazıçıların əsərlərində öz əksini tapmağa başladı" [7].

Ümumiyyətlə, nəsrdə, xüsusən də Orta Asiya və Qafqaz xalqlarının ədəbiyyatında hüquqsuz, ya da hüquqlarını bərpa etməyə çalışan qadın obrazları gender normalarını, qadınların sosial statuslarını əks etdirməklə yanaşı, cəmiyyətin daha geniş məsələlərini də ədəbiyyata gətirir. "Romantik yazıçılar tərəfindən yaradılmış qadın obrazları – romantik nəsrin qəhrəmanları ya gənc ziyalı və ya böyük həyat təcrübəsinə malik qadın hüquqsuzluğunun bütün əziyyətlərini çəkmiş savadsız qadınlardır" [6, s.62]. Bu obrazlar qadınların mübarizəsini, cəmiyyətin patriarxal strukturlarını və hüquqsuzluğun yaratdığı problemləri aydınlaşdırmaq üçün əhəmiyyətli material təqdim edir. Nəsrdə bu istiqamətdə sualların qaldırılması cəmiyyətin qadınlara münasibətini dəyişdirmək və daha ədalətli bir dünya yaratmaq məqsədini izləyir. "Cəmilə" və "Tütək səsi" əsərlərinin müqayisəsi göstərir ki, hər iki əsər müharibə dövründə qadınların yaşadığı çətinlikləri və sosial dəyişiklikləri anlamağa kömək etməklə bərabər, qadınların mənəvi dünyasını təzyiq altında saxlayan mövcud sosial normaları da müzakirə obyektinə çevirir. "Cəmilə"də ənənəvi cəmiyyətin qadınlara təsiri ön plana çəkilir, "Tütək səsi"ndə isə qadınların ictimai vəzifələri ilə bağlı məsələlərə daha çox diqqət yetirilir. Hər iki əsərdə müharibənin fərdlərə və ailələrə dağıdıcı təsiri də nəzərə çatdırılır.

**Ədəbiyyat**

1. Aytmatov, Ç. Cəmilə. – Bakı: Altun kitab, 2018, 96 s.
2. Azərbaycanda qadın məsələsi (XX əsrin 40-60-cı illəri). Elmi məqalələr toplusu. AMEA FSHİ. – Bakı: Təknur, 2011.
3. Dağtumas, S. Çingiz Aytmatovun "Cəmilə" əsərində qadının romantik xəyanəti

[Elektron Resurs] URL: https://aia.az/72137-cingiz-aytmatovun-cemile-eserinde-qadinin-romantik-xeyaneti.html

4. Həsən, E. Çingiz Aytmatovun "Cəmilə" povestində qadın sədaqətsizliyi [Elektron Resurs] URL: https://ovqat.com/edebiyyat-medeniyyet/63881-cingiz-aytmatovun-cemile-povestinde-qadin-sedaqetsizliyi.html
5. Hüseynov, İ. Tütək səsi, Ədəbiyyat müntəxəbatı. – Bakı: Elm və Təhsil, 2016, 488 s.
6. Qafarova, S. Gender və Filologiya. Dərs vəsaiti. – Bakı: Mütərcim, 2009, 144 s.
7. Qəhrəmanlı, N. 1920-1930-cu illərdə realist hekayə tipi / "Ədəbiyyat" qəzeti, 21 sentyabr, 2024, s.11.
8. Qırğız ədəbiyyatı, ikinci yazı, Xalq Cəbhəsi. – 2020, 5 sentyabr, s.14. [Elektron Resurs] URL: https://www.anl.az/down/meqale/xalqcebhesi/2020/sentyabr/715325.htm
9. Гасанов, М. (2016). Киргизское и азербайджанское село в период Второй мировой войны: от реальности к художественному вымыслу. Науковий вісник Міжнародного гуманітарного університету. Серія: Філологія, 66-69.